# **Vergi ödəyicilərinin** siyahıya alınmış **əmlakının satışı** vergi orqanları tərəfindən həyata keçiriləcək



Azərbaycan Respublikası Prezidentinin Vergi Məcəlləsinə dəyişikliklərlə bağlı təsdiq etdiyi qanunvericiliyə əsasən vergi ödəyicisinin siyahıya alınmış dövlət əmlakının, digər daşınmaz əmlakın və dəyəri 5.000 manatdan çox olan daşınar əmlakın müvafiq qurum vasitəsilə, dəyəri 5.000 manatdan çox olmayan daşınar əmlakın isə ticarət şəbəkələrində satılması barədə məhkəmədə iddia qaldırılması və məhkəmə qərarları üzrə həmin əmlakların satışının qanunvericiliyə uyğun olaraq təşkili vergi orqanlarının hüquqlarına aid edilib.

Qeyd olunan dəyişikliklər vergi borclarının yığılması effektivliyinin artırılmasına və nəzarət mexanizmlərinin gücləndirilməsinə xidmət edir.